**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

**Magistrarura pilləsi üçün**

**060201 Dilşünaslıq (Türkologiya ) ixtisası üzrə**

**İF-M 2802 Cənubi Azərbaycan dialektləri seçmə fənnin**

# P R O Q R A M I

**Bakı- 2016**

**Tərtib edəni:** **Məhərrəm Məmmədov**

filologiya elmlər doktoru, professor

**Elmi redaktor:** **Elbrus Əzizov**

filologiya elmlər doktoru, professor

**Rəyçilər:** **Əzizxan Tanrıverdi**

Azərbaycan Dövlət Pedaqoji Universiteti Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri, filologiya elmləri doktoru, professor

**Gülxanım Vəliyeva**

filologiya üzrə fəlsəfə doktoru, dosent

## İzahat vərəqəsi

Azərbaycan xalqının böyük əksəriyyəti İran İslam Respublikasının on bir əyalətində – tarixi yurd yerlərində kompakt halında 280 min kv.km ərazidə məskunlaşmışlar. Son statistik məlumatlara görə, güneydəki həmyerlilərimizin sayı 30-35 milyondur. İranda əhalinin sayına görə, türklər farslardan sonra ikinci yeri tutur.

**Fənnin öyrənilməsinin məqsəd və vəzifələri.** Fənnin tədrisində əsas **məqsəd** magistrantlara dilimizin Cənubi Azərbaycan dialektlərinin tədqiq tarixi, dialekt sistemində mövqeyi, ədəbi dil və dialektlərimizlə uyğun və fərqli cəhətləri, qədim yazılı abidələrlə və müasir türk dilləri ilə uyğun xüsusiyyətlərini tanış etməkdir. Bunun üçün qarşıya aşağıdakı **vəzifələr** qoyulur: Cənubi Azərbaycan dialektlərinin mövqeyinin müəyyənləşdirilməsi, dialektlərin bölgüsü ilə bağlı fikir müxtəlifliyinin izahı, fonetik, qrammatik və leksik xüsusiyyətlərin səciyyələndiril məsi, qədim və müasir türk dilləri ilə uyğun cəhətlərin müəyyən olunması və s.

**Fənnin tədrisi prosesində magistrantlar bilməlidir:**

- Azərbaycan dili dialektlərinin yaranması və inkişafını
- Məhəlli və sosial dialektlərin xarakterik cəhətlərini
- Cənubi Azərbaycan dialektlərinin səciyyəvi izoqloslarını
- Səciyyəvi dialekt xüsusiyyətlərinin mənşəyini və arealını

**Bacarmalıdır:**

- Cənubi Azərbaycan dialektlərinin mövqeyini müəyyənləşdirməyi

- Ədəbi dildən fərqli cəhətləri seçməyi

- Səciyyəvi xüsusiyyətləri yazılı abidələrlə və müasir türk dilləri ilə müqayisə etməyi

**Yiyələnməlidir:**

- Dialekt faktlarını toplamağı, seçməyi, qruplaşdırmağı, qədim abidələrlə və müasir türk dilləri ilə müqayisəli şəkildə tədqiq etməyə

**Fənnin tədrisi üsulları:** Fənn mühazirə və məşğələ formalarında tədris olunur.

**Fənnin tədris planında yeri:** Filologiya fakültəsində magistratura pilləsində

**060201** Dilşünaslıq ( Türkologiya) ixtisası üzrə İF- M 2802 Cənubi Azərbaycan dialektləri adı ilə seçmə fənn kimi 15 saat mühazirə, 30 saat məşğələ olmaqla cəmi 45 saat həcmində tədris olunur.

Cənubi Azərbaycan dialektləri fənni Azərbaycan dili tarixi, Azərbaycan dilinin tarixi dialektologiyası, Qədim türk yazılı abidələri, Müasir türk dilləri fənləri ilə əlaqəli şəkildə tədris olunur.

**Fənnə ayrılan illik saatın proqramın mövzuları üzrə bölgüsü:**

| № | **Mövzuların adı** | **Dərsin növü** | **Saat** | **Qeyd** |
|---|---|---|---|---|
| 1. | Cənubi Azərbaycan dialektlərinin tədqiq | Mühazirə | 2 | |
| 2. | Azərbaycan dialektlərinin təsnifi | “_______” | 2 | |
| 3. | Dialektlərin fonetik xüsusiyyətləri. Saitlər. | “_______” | 2 | |
| 4. | Samitlərin variantları və dəyişməsi | “_______” | 2 | |
| 5. | Morfoloji xüsusiyyətlər. isim və qrammatik kateqoriya | “_______” | 2 | |
| 6. | Sifət, say, əvəzlik və zərfin əsas dialekt xüsusiyyətləri | “_______” | 2 | |
| 7. | Feil və köməkçi nitq hissələri | “_______” | 2 | |
| 8. | Sintaktik və leksik xüsusiyyətlər | “_______” | 1 | |
| 9. | Cənubi Azərbaycan dialektlərinin tədqiq tarixi | Məşğələ | 2 | |
| 10. | Dialektlərin xarici ölkələrdə öyrənilməsi | “_______” | 2 | |
| 11. | Dialektlərin təsnifi | “_______” | 2 | |
| 12. | Saitlərin variantları və dəyişməsi | “_______” | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| 13. | Samitlərin variantları və dəyişməsi | "_______" | 2 | |
| 14. | Ahəng qanunu və fonetik hadisələr | "_______" | 2 | |
| 15. | İsmin hal və kəmiyyət kateqoriyaları | "_______" | 2 | |
| 16. | Mənsubiyyət və şəxs kateqoriyaları | "_______" | 2 | |
| 17. | Sifət vəəvəzliyin əsas xüsusiyyətləri | "_______" | 2 | |
| 18. | Feilin şəkilləri | "_______" | 2 | |
| 19. | Feilin zamanları | "_______" | 2 | |
| 20. | Köməkçi nitq hissələri | "_______" | 2 | |
| 21. | Sintaktik xüsusiyyətlət | "_______" | 2 | |
| 22. | Dialektlərin lüğət tərkibi | "_______" | 2 | |
| 23. | Söz yaradıcılığı | "_______" | 2 | |

## Güney Azərbaycan şivələrinin tədqiq tarixi

Cənubi Azərbaycan dialektləri (CAD) barədə ümumi məlumat. Xaricdə CAD-nə dair K.Foy, H.Ritter, B.Monteilin, G.Dörfer, K.Haneda, S.Şapşal, B.A. Gökdağ, C.Karini, T.Doğan və b. araşdırmaları. Səlmas şivəsinin B.A.Gökdağ, Şapur şivəsinin M.Əmirpur, Təbriz şivələrinin isə M.Məmmədov tərəfindən monoqrafik üsulla tədqiqi.

Əlavə ədəbiyyat :5, 6, 11, 14

## Şivələrin təsnifi

Azərbaycan şivələri arasında CAD-nin mövqeyi. Təbriz koyne dialekti. Fars dilinin CAD-nə təsiri. Güney azərbaycanlı ədiblərin əsəsrlərində şivə xüsusiyyətləri. CAD-nin öyrənilməsinin əhəmiyyəti. Təcrid olunmuş şivələr.

Mənbələrdə Güney Azərbaycanda dialekt və ya ləhcələrin sayının müxtəlifliyi. M.Şirəliyev öz təsnifatında Cənubi Azərbaycanda bir dialektin (Təbriz dialekti), E.Əzizov üç şivə qrupunun (Təbriz, Ərdəbil, Urmiya), M.Əmirpur iki dialektin (Təbriz, Rezaiyə gölü ətrafı), B.Rəsuloğlu doqquz ləhcənin (Təbriz, Qaradağ, Yamçı, Uyğur, Marağa, Ərdəbil, Zəncan, Həmədan, Xələc) mövcudluğunu qeyd etməsi. Bəlli olan dialektoloji materiallar Cənubi Azərbaycan şivələrini təsnif etmək üçün kifayət etməsə də, uzun illər əhalinin miqrasiyası ilə bağlı şivələr bir-birinə qarışdığından iki şivə qrupunu fərqləndirmək mümkündür. Təbriz və Urmiya.

Əlavə ədəbiyyat: 5

## Fonetika

Səs sistemi. Saitlər və onların variantları. Saitlərin dəyişməsi. Samitlər və onların variantları. Urmiya şivəsində ***nq*** səs birləşməsinin işlənməsi (*qalıranq, gəlirənq*). Samitlərin dəyişməsi. Fonetik hadisə və qanunlar. Ahəng qanunu və pozulma məqamları. Vurğu.

Əlavə ədəbiyyat : 5, 10, 11, 12

## Morfologiya

Sözün tərkibi. Qrammatik şəkilçilər. Nitq hissələri. Əsas və köməkçi nitq hissələri. Güney Azərbaycan şivələrində morfoloji dialekt fərqləri.

### İsim

Xüsusi isimlər. İsimlərin hallanması. Hallanma prosesində fonetik və morfoloji xüsusiyyətlər. Yerlik və çıxışlıq hal şəkilçilərinin ***-ta²***, ***-tan²*** variantlarının işlənməsi. Mənsubiyyət kateqoriyası. Mənsubiyyətin analitik forması (*mənim mal, bizim qız*). Mənsubiyyət şəkilçili isimlərin hallanması. Mənsubiyyət şəkilçilərindən sonra yiyəlik hal şəkilçisinin işlənməməsi (*babam tükani, canım parası*). Mənsubiyyətli hallanmada yiyəlik, yönlük və təsirlik hallarda ***v*** (Təbriz, Qaradağ şivələri), ***y*** (Urmiya şivəsi) ünsürlərinin işlənməsi. Kəmiyyət kateqoriyası. ***-lar²*** şəkilçisinin ***-la²*** şəklində işlənməsi.

Əlavə ədəbiyyat : 5, 12

### Sifət

Sifət. Ədəbi dildə işlənməyən sadə sifətlər. Sifətin dərəcələri. ***-rax***, ***-rəx'*** şəkilçisinin intensivliyi (*azarax, çoxrax, yaxşırax ,tezrax* və s.).

Əlavə ədəbiyyat :5. 11, 14

## Say

Say və onun məna növləri. Miqdar sayları.İkki, ottuz say formalarının mövcudluğu. Qeyri-müəyyən miqdar sayları. Sıra saylarının ***-minci*** şəkilçisi ilə əmələ gəlməsi.

Əlavə ədəbiyyat: 5. 11, 14

## Əvəzlik

Əvəzlik və onun məna növləri. Şəxs əvəzlikləri və onların hallanması. İşarə əvəzlikləri. Qeyri-müəyyən və inkar əvəzlikləri. Sual əvəzlikləri. ***Nəmənə*** sual əvəzliyi. Təyini əvəzliklər. Qayıdış əvəzliyi. ***Bilə*** qayıdış əvəzliyi.

Əlavə ədəbiyyat : 5, 11, 14

## Feil

Feilin şəkilləri. Xəbər şəkli. Feilin zamanları. Şühudi keçmiş zaman. Nəqli keçmiş zaman. Zəncan və Həmədan şivələrində nəqli keçmiş və indiki zamanların II şəxs təkində ***-an***, ***-ən*** (*almışan, görmüşən*), şəxs şəkilçilərinin işlənməsi. İndiki zamanın ***-ır$^4$, -ı$^4$, -ey, -eyir, -iy, -a, -ə*** şəkilçiləri ilə ifadə olunması. İndiki zamanın III şəxs təkində ***-ıri, -iri*** (*alıri, gəliri*) şəxs şəkilçisinin işlənməsi. Gələcək zaman. Vacib şəklinin ***-max gərəx'*** (*baxmaq gərəx'*), ***gərəx'//hətmən -a,-ə*** (*gərəx' gələ*), ***gərəx'//hətmən -malı$^2$*** (*gərəx' gəlməli*) formaları. Şərt şəkli. Şərt şəklinin mürəkkəbi. Şərt şəklinin analitik forması (*salmağım olsa*). Bacarıq şəkli. Bacarıq şəklinin inkarı. Feili bağlama. Məsdər.

Əlavə ədəbiyyat: 5, 11, 13, 14

## Zərf

Zərf. Ədəbi dildə işlənməyən zərflər. Zərfin məna növləri. Tərzi-hərəkət zərfi. Zaman zərfi. Yer zərfi. Kəmiyyət zərfi.

Əlavə ədəbiyyat : 5, 11, 14

## Köməkçi nitq hissələri

Qoşma (*so:ra, qabax, ilə//inən//nan//nən//dan, üçün//için//üçin//çin, sarı, can, cad//cəd, kimin, təkin, ötür, yana*). Bağlayıcı (*həm//həmi,ya, amma//əmma, ginə, gahdan, ki, əyə, vəli*). Ədat (*dahı//da, yox,xeyir, da, də, laf, axı//ahi, məyə, day//tay, dana, ha, hə, a, ə*). Modal sözlər (*əlbətdə, do:rdan, bəlkəm, əzqəza, əvvələn*). Nidalar (*heyf, ey, aha, ay, eyvay, bəh-bəh, ba, bə, xub*).

Əlavə ədəbiyyat : 5, 11, 14

## Sintaksis

Söz birləşmələri. Sintaktik əlaqələr. Cümlə üzvləri. Cümlədə söz sırasının pozulması. Sadə cümlənin növləri. Mürəkkəb cümlənin növləri.

## Leksika

Lüğət tərkibinin mənşə baxımından bölgüsü. Türk mənşəli sözlər. Ərəb və fars mənşəli sözlər. Hibrid sözlər (çöllibiyaban "çöl, düz", uzundıraz "uzun", təxtəqapi "oturaq", havapeyman "təyyarə", tacir-tüccar "tacirlər", xoşsima "gözəl üz" və s.). Lüğət tərkibində qədim dövlərin izləri. Tayfa və nəsil adları. İl və və ay adları. Çəki və ölçü vahidlərinin adları. Termin səciyyəli sözlər. Qohumluq terminləri. Termin səciyyəsi daşımayan sözlər. Arxaizmlər. Sinonimlər. Omonimlər. Antonimlər. Frazeoloji birləşmələr.

Əlavə ədəbiyyat : 8, 9

## Söz yaradıcılığı

Leksik yolla söz yaradıcılığı. Morfoloji üsulla söz yaradıcılığı. Leksik şəkilçilər. Ad düzəldən şəkilçilər (çatma "müvəqqəti sığınacaq", yaslama  "yas yerinə gətirilən qoyun", vədəçi "toya adam çağıran şəxs", çərçilix, yazam "yazda qırxılan yun", yaxı " çörək növü", köçərgi, yazdax və s.). Feil düzəldən şəkilçilər (quyula

"basdırmaq", qırmala, çomurra, aramlaş, yaşlan, acal (şax), ölüşgə (məx') və s. ). Sintaktik yolla söz yaradıcılığı.
Əlavə ədəbiyyat : 5, 11, 14

## Sərbəst işlərin mövzuları:

1. Azərbaycan dili dialektlərinin yaranması və tarixi inkişafı
2. Cənubi Azərbaycan dialektlərinin dialekt sistemində mövqeyi
3. Cənubi Azərbaycan dialektlərinin öyrənilməsi
4. Cənublu ədiblərin əsərlərində dialektizmlər
5. Müasir türk dilləri ilə uyğun gələn fonetik xüsusiyyətlər
6. Müsir türk dilləri ilə uyğun gələn morfoloji xüsusiyyətlər
7. Dialektlərdə qədim türk xüsusiyyətləri
8. Cənubi Azərbaycan dialektlərinə fars dilinin təsiri
9. Təbriz dialektinin əsas xüsusiyyətləri
10. Urmiya dialektinin əsas xüsusiyyətləri

## Əsas ədəbiyyat

1. Məmmədli M. Azərbaycan dilinin Təbriz dialekti. Bakı: 2008, 240 s.

2. Cəfərov N. Cənubi Azərbaycanda ədəbi dil normaları, üslublar. Bakı: 1990, 153
3. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası (Dialekt sisteminin təşəkkülü və inkişafı). Bakı: 1999, 354 s.
4. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: 2008, 416 s.

## Əlavə ədəbiyyat

5. Gökdağ B.A. Salmas ağzı ( Güney Azerbaycan Türkçesi üzerine bir inceleme). Çorum: 2006, 412 s.

6. Gökdağ B.A. Iranda türkler ve türkçe. Ankara, 2016, 580 s.

7. Gülcahan Pehlivan. Hemedan bölgesi (İran) Bahar ağzı üzerine// Diyalektoloq, 2011, sayı 3, s.33- 51.

8. Hüseynəlizadə S.Y. Azərbaycan dili Əfşar şivəsinin lüğət tərkibi. Filol.üzrə fəlsəfə doktoru....disser. avtoreferatı, Bakı, 2014, 26s.

9. Xoşbatini H. Azərbaycan dilində arqolar. Bakı: Elm və təhsil, 2015,160 s.

10. Xəlilzadə Ə.O. İran Azərbaycan dialekt və şivələrində ahəng qanunu. Filol. üzrə fəlsəfə doktoru ..... disser. avtoreferatı, Bakı, 2010, 26 s.

11. Karini J. Erdebil ili ağızları ( doktora tezi). Ankara: 2009, 529 s.

12. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı:1990, 376 s.

13. Rüstəmov R. Azərbaycan dilinin dialekt və şivələrində feil. Bakı:1965, 318 s.

14. Talip Doğan. Urmiye ağızları (doktora tezi). Kırıkkale: 2010, 535 s.